# IV. "AÇILMAYAN SİRLƏR"İN İSTİNAD YOLU

## 4. İgidliyin mərdlik üzü

*"Açılmayan sirlər"* kitabının bədii məziyyətlərindən çox nəsil-şəcərə yoluna diqqət verməyi üstün bildik. Çünki kitab böyük bir nəslin tarixi taleyi ilə bağlı hadisələrin bədii təsvirini yox, tarixi hadisələrin xronikasını və qeyd etdiyimiz kimi yaddaşda yaşayan hekayətlər əsasında verir. Başqa sözlə, əsər ad faktlarına söykənərək nəslin tarixi-xronoloji xəttini təqdim edir.

Hər bir nəsil və nəslə mənsub olan adamlar özü müəyyən fərdi keyfiyyət daşıyıcısıdır. Ancaq bütövlükdə həm də Azərbaycan xalqının ümumi dəyərlərini özündə əks etdirir. Bir nəsli dərindən, mükəmməl öyrənməklə onların mənsub olduğu təbii arialda məskunlaşmış tayfa və nəsillərin kimliyi haqqında bütöv təsəvvür əldə etmək olar. Ulduz Qasım və Ramiz İmanov da, görünür, yaddaşda və arxiv sənədlərində yaşayan hadisə və əhvalatların fonunda tarixi şəxsiyyətlərin yaşam yolunu izləməyi də elə bu səbəbdən özlərinə borc biliblər. Əlbəttə, müəlliflərin zəhmətini danmaq olmaz. Çünki Ənvər Çingizoğlu kimi qeyri-adi zəhmət və yaddaş sahiblərinin təqdim etdiyi faktlar, şübhəsiz, nisbətən quru və sxematik xarakter daşısa da, araşdırıcılar üçün fakt baxımından daha mühüm əhəmiyyət kəsb edir.

İndi *"Açılmayan sirlər"* kitabının *"ön söz"*ü kimi verilmiş mətni izlədikcə tədqiqatçı Ənvər Çingizoğlunun da heç də müəlliflərdən az iş görmədiyinin şahidi oluruq. Doğrusu, bu kitab haqqında yazarkən Ənvər Çingizoğlu ilə də nisbətən yığcam həcmli bir müsahibə aparmağı nəzərdə tuturduq. Təəssüf ki, bu qeyri-adi, intellektual mənəvi gücə malik tədqiqatçımız 60 yaşının tamamı dönəmində qəflətən vəfat etdi. Və istər-istəməz özü ilə birgə bir çox mətləblərə aydınlıq gətirə biləcək düşüncələrini də özü ilə apardı. Zənnimcə, *"Açılmayan sirlər"* kitabı ilə bağlı düşüncələrimizi onun Ulduz Qasımın və Ramiz İmanovun kitabına xammal verən qeydlərinə belə geniş yanaşmağımız da görkəmli tədqiqatçının xatirəsinə ehtiram əlaməti kimi başa düşülməlidir.

Cəbrayıl qəzasının Mehdili obası Araz sahilində yerləşir. Onu da qeyd etmək lazımdır ki, Arazın Qarabağ üzü sahilləri münbit torpaqları, geniş əkin-biçin yerləri, gözoxşayan barlı-bəhərli bağları ilə məşhurdur. Cocuqmərcanlı, Mehdili, Çaxırlı, Böyük Mərcanlı, Maralyan, Mahmudlu, Sarıcallı, Əmirvarlı, Məzrə, Soltanlı, Alıkeyxalı, Hasanlı, Aşağı Xələfli (Xələfli stansiyası), Xudafərin, Qumlaq (Dərzili, Məstəlibəyli) kəndlərinin əhalisi Araz boyunca gözoxşayan torpaqları əkib-becərməklə güzəran qurmuşdular. Çox təəssüf ki, erməni işğalçıları Dağlıq Qarabağda hakimiyyəti ələ keçirib ətraf ərazilərin də qəsbkarlığına başladılar. Beləliklə, Cəbrayıl rayonunun Arazboyu əraziləri də erməni vandallarının talan və qarətlərinə məruz qaldı. Sadə zəhmət adamlarının öz əməkləri ilə tikib-qurduqları evlər sökülüb aparıldı. Bütün sosial obyektlər yerlə-yeksan edildi. İndi həmin yerlərin foto, video xronikalarına baxdıqca orta əsr xarabalıqlarını xatırladan ərazilər gözlərimizi yandırır.

*"Açılmayan sirlər"* kitabının müəllifləri Ulduz Qasımın və Ramiz İmanovun mənsub olduğu nəsil də məhz Mehdili kəndində pərvəriş tapmışdı. Onlar bu yerlərin barı, bərəkəti ilə ev qurmuş, ailə saxlamış, övladlar böyütmüşdülər.

Hacı Məmmədqulu İmamverdi oğlunun xətti ilə gələn nəsil də halal zəhmətlə yaşamağı ata-babalarından irs kimi, halallıq məktəbi kimi əxz etmişdilər.

Ənvər Çingizoğlu xronikada əsas yer tutan obrazlardan biri kimi Molla İbrahimin də şəcərə yoluna xüsusi diqqət ayırır. O, Hacı Məmmədqulu İmamverdi oğlunun həyat yolunu özünə örnək qəbul etmiş, övladlarına da bu yola sadiq qalmağı təlqin etmişdi. Tədqiqatçı Ənvər Çingizoğlu Molla İbrahimin ailə şəcərəsi haqqında da ətraflı və əhatəli məlumat verir: *"Molla İbrahim Mələk Hüseyn qızı ilə ailə qurmuşdu. Burzu, Zakir, Mehman, Əfqan, İman, Məmmədqulu adlı oğulları, Gülçöhrə adlı qızı var". Bu adlardan sonra xronikada biz Hacı Məmmədqulu İmamverdi oğlunun növbəti övladı Məhəmməd haqqında məlumat alırıq: "Hacı Məmmədqulunun dördüncü oğlu Məhəmməd 1912-ci ildə Qaryagin qəzasının Mehdili obasında anadan olmuşdu. Səkkizillik məktəbi bitirəndən sonra kənd təsərrüfatı texnikumuna daxil olmuşdu. Texnikumu tamamlayandan sonra kolxozda baytar işləmişdi. Məhəmməd İmanov 1945-ci ildə vəfat edib".* Göründüyü kimi, nəslin hər bir nümayəndəsi zamanın axarında, xüsusilə Sovet dövrünün qəddar anti din təbliğatı dövründə mühitin tələbatını vaxtında və düzgün qiymətləndirir. Onların hər biri yeni dövrün tələblərinə uyğun olaraq oxumağı, təhsil almağı, dünyəvi təhsilin nəticəsində mühitin ehtiyac duyduğu ixtisaslara yiyələnməyi vacib hesab edirlər. Elə mətndəki faktlar da bunu təsdiqləyir: *"Hacı Məmmədqulunun beşinci oğlu Yusif 1915-ci ildə Qaryagin qəzasının Mehdili obasında doğulub. Kolxozda aqronom, sahə briqadiri işləyib.Yusif İmanov 2006-cı ildə vəfat edib.Yusif Xanxanım Papış qızı Hacıyeva ilə həyat qurub. Elxan, İlham, İntiqam, Zahir adlı oğulları, Gülzar, Gülnar, Şükufə, Vəsilə, Pərvanə və Dürdanə adlı qızları var".* Mətndəki adların dəqiq və yerinə görə xatırlanması, eləcə də hər bir şəxsin ailə və əmək həyatı ilə bağlı qısa, müxtəsər qeydlər göstərir ki, tədqiqatçı Ənvər Çingizoğlu bu insanların həyat yolu ilə bağlı daha çox məlumata malik olub.

Görünür, yazacağı mətnin genişləyəcəyindən ehtiyatlanaraq bəzi məqamlarda ümumiləşdirmə yolu ilə getmiş, qısa məlumatla kifayətlənmişdir. Amma elə bu qısa məlumatlar da bəs edir ki, müəlliflər nəslin tarixi taleyi ilə bağlı qələmə aldıqları *"Açılmayan sirlər"* kitabında dövrün mənzərəsini kifayət qədər dolğunluğu ilə verə bilsinlər.

Ənvər Çingizoğlunun məlumatlarının bu yerində Əyyub İmanov haqqında bir qədər geniş və müfəssəl məlumat verməyə çalışır. Onu da deyək ki, bəzi məqamlarda faktlar sıralansa da, Ənvər Çingizoğlu lazım gələn anda fikirlərinə qol-qanad verir. Xalq arasında yaşayan əhvalatlarla öz qeydlərini daha da canlı bir ruhla qələmə ala bilir. Elə Əyyub İmanovla bağlı hissələr də bu cəhətdən diqqəti cəlb edir: *"Hacı Məmmədqulunun altıncı oğlu Əyyub 1925-ci ildə Cəbrayıl qəzasının Mehdili obasında anadan olmuşdu. Kiçik yaşlarından anadan yetim qalmış Əyyub tezliklə atasını da itirib. Atasının evi, malı, yer və yurdu əlindən alınandan sonra ailə çətin vəziyyətə düşüb, dolanışığı ağırlaşıb".* Sovet quruluşu tavanalı insanlara (yəni varlı, imkanlı) qənim kəsilmişdi. Onların əllərində olan alınmış, illərlə zəhmətlə qazandıqları qəsb olunmuşdu. Nəslin yeni zamanda yaşamalı olan övladları bu çətinlikləri öz həyatlarında daşımalı idilər. Ancaq onların genetik gücləri, fitri istedadları zamandan baş çıxarmaq üçün bələdçi ola bilirdi.

Tarixin elə dönəmləri olur ki, zaman insanların təbiətinə dağıdıcı təsir göstərir. Nəslin də içərisindən elələri peyda olur ki, onlar yeni quruluşun icraçılarına çevrilirlər. Belə bir hal Əyyubgilin həyatında da özünü göstərir. Hər halda Əyyub Sovet dövrünün ağrı-acılarından keçib gəlmişdi. Yaşadığı həyatın tarixi xarakterini də yaddaşında yaxşı saxlamışdı. O bildiyi məlumatlarla nəslin ağıllı adamlarını, yeni ruhlu gənclərini kifayət qədər məlumatlandıra bilmiş, onlara həqiqətin yolunu göstərmişdi. *"Açılmayan sirlər"*də geniş təqdim olunan hadisələrin qısa xronikasını biz Ənvər Çingizoğlunun mətnində də görürük: *"Şeytanın xristian və islam üzərində müvəqqəti qələbəsi, şeytan xisləti olan insanlarda geniş imkanlar yaratdı. Hacının "üzdəniraq" qohumları onların nəyi varsa, harda isə o, vaxtı orda olmuş Baş şeytanın köməkçisi Medvedevə nə varsa, hamısını arabalarla yığılmasına kömək edirdilər. Molla İbrahim deyirdi ki, Hacıbabanın 1 köhnə yəhəri vardı onun qatlağı üstündə bir vərə, hamıdan kiçik olan Əyyuba 20-dən yuxarı onluq qızıl qoymuşdu ki, ona verərsiniz. Bunu təxminən bilən biri təkidlə köhnə yəhəri təkrar-təkrar arabıya atmaq istədikdə Medvedev onu yerə atırdı. Araba tərpənib gedəndə təzədən onu ora atdı və bununla da nə varsa şeytanbazlara qismət oldu".* Bu mətndə xatırlanan rus zabitinin soyadına başqa əsərlərdə də rast gəlmişəm. Professor Qəzənfər Kazımovun *"Qaçaq Həsən"* adlı sənədli povestində də onun yerli əhaliyə qəddar münasibəti kifayət qədər real cizgilərlə verilib. Qəzənfər Kazımovun əsəri göstərir ki, bu qəddar və qaniçən rus zabiti təkcə Soltanlı ərazisində yox, elə bütöv Arazboyu kəndlərin hamısında zalımlığı ilə tanınmış şəxs olub.

Hadisələr günbəgün dəyişirdi. Bir gün insanların sərvətləri, malları qəsb edilir, daha sonrakı mərhələdə onların kənddə nisbətən fərqlənən evləri, yaşayış sahələri də əllərindən alınır.

Kimsənin danışmaq qüdrəti yox idi. Azacıq etiraz edənlər güllələnir, öldürülür, həbsxanalara atılır. Ən yaxşı halda Qazaxıstana, Sibirə, Arxangelskə göndərilirdi. Elə bu səbəbdən də vəziyyətlə barışmaq, bir çox haqsızlıqları sükutla qarşılamaq daha üstün idi. Hadisələrin yeni məzmununu müəllif belə verir: *"Əyyubgilin evləri məktəb və uşaq bağçasına çevrildi. Tövlələri isə "inqilab"çı kolxoza verildi. Onların bütün hüquqları əlindən alındı. Sonra isə əzablı, işgəncəli dövr başlandı. O vaxtı Xorasanda ali dini təhsil almış, Məşədi Qasımı tutmaq üçün onun din öyrətdiyi bir nəfərdən istifadə etdilər. O da Məşədi Qasımın İrana qaçmasına səbəb oldu ki, ondan sonra ailəyə təzyiqlər gücləndi. Hacı Məmmədqulu bu şeytani əməllərə tab gətirməyib haqqın dərgahına qovuşdu. Bütün ailənin çətinliyi nəslin "dədə" çağırdığı İbrahimin üzərinə düşdü".* Biz bu hissədə nəslin tarixi taleyini bədii salnaməyə çevirə bilən görkəmli yazıçımız Ulduz Qasımın ədəbi təxəllüsünün mənbə adına da rast gəlirik.

Ulduz Qasım görkəmli ilahiyyatçı-alim babasının həyat yolunu yaxşı öyrənib. Onun necə bir şərəfli missiya daşıyıcısı olduğunu bilib və onu özünə əbədi örnək kimi qəbul edib.

İndi Ulduz Qasımın Moskvada yaşaması və elə böyük Rusiyanın paytaxtında yaşayaraq onun işğalçı simasını açıb göstərən əsərlər yaratması da tarixin ironiyası kimi də diqqəti cəlb edir. Görünür, ilahiyyatçı alim Məşədi Qasımın həyatının bundan sonrakı mərhələsi İranda davam etmişdir. Ulduz Qasım bədii tədqiqatlarını ən müxtəlif aspektlərdə davam etdirir. Hətta *"Açılmayan sirlər"*dəki maraqlı, cəzbedici səhnələrlə də kifayətlənmir. Yeri gəldikcə digər əsərlərində də həyatını mənəvi həqiqətlərə həsr etmiş babası Qasımın taleyi haqqında dəfələrlə, yeri gəldikcə oxucularına məlumatlar çatdırmışdır.

Görünür, Ulduz Qasımın yaradıcılığında avtobioqrafizm əsərləri gələcəkdə ayrıca tədqiqat obyekti olacaq. Çünki o bir yazıçı kimi həyat həqiqətlərini doğru və düzgün işıqlandırmağı özünə mənəvi borc bilir. Elə bu səbəbdən də yeri gəldikcə yazılarına avtobioqrafik sızıntıları səxavətlə bəxş edir.

Hər halda mətnin bu hissəsində biz Əyyub İmanovun taleyi haqqında danışırıq. Əyyubun kimliyi, onun həyat uğrunda mübarizədə bişən təbiəti yenilməz insan xarakterinin ən qabarıq cizgiləri kimi diqqəti cəlb edir.

Tədqiqatçı Ənvər Çingizoğlu da müdrikliyi, aqilliyi, mərdliyi və qorxmazlığı ilə seçilən Əyyub İmanovun həyat yoluna nisbətən xüsusi xarakter cizgilərinə görə geniş yer verir: *"Nə isə, Allah zaminində olan Əyyubun gəncliyi də uşaqlığı kimi çətinliklərlə dolu oldu- . II Dünya müharibəsi zamanı, 1942-ci ildə 17 yaşlı Əyyubu Zifi Ziyad oğlu Sadıqov və Əli Məmməd oğlu Mehralıyev ilə birlikdə bir neçə ay təlim keçdikdən sonra Ukrayna cəbhəsinə göndərdilər. Orda general Vatutinin rəhbərlik etdiyi komandada vuruşmağa başladı. Faşistlər onu Kiyev şəhəri azad edilərkən qıçından və döş hissəsindən yaraladılar. Ordudan qayıtdıqdan sonra kənddə kolxozçu işlədi. Az sonra ferma mühasibi, daha sonra baş mühasib vəzifəsinə irəli çəkildi. Yenə şeytana oxşarlar ondan materiallar yazmağa başladılar. Əyyubun vəzifədən çıxarılmasına nail oldular, lakin o, təhvil-təslimdə iştirak etmədi və kassanın açarını qaytarmadı. Əlacı kəsilən vəzifə sahibləri onu kənd sovetinə deputat seçdirib rayonun ən böyük kənd soveti olan Çaxırlı kənd sovetinin katibi təyin etdilər".* Müharibənin ağır yolları, ölümlər-itimlər onu qorxuzmur. Döyüşlərdən mətnliklə keçir. Ən başlıcası, müharibədən sonra doğma elə, obaya artıq mətndə qeyd olunduğu kimi yenilməz bir şəxsiyyət kimi qayıtmışdı.

O, həyatı boyu doğruluğu, düzgünlüyü özünə inam yolu seçmişdi. Elə bu səbəbdən də yeri gələndə vəzifə sahiblərinin təzyiqlərindən də qorxmurdu, çəkinmirdi. Hiss edirdi ki, haqsızlıqdan əzilənlər də ona ümid yeri kimi baxır, güvənirlər. Beləcə, Əyyub İmanov yolunun üstünə çıxan daşları qaldırıb kənara atmağı bacarır. Kötükləri itələyib həyat yolunu təmizləyir. Beləliklə, o yenə də Arazboyu kəndlər içərisində nüfuz sahibi olaraq qalır. Hörməti getdikcə artır: *"Əyyub kənd soveti katibliyindən çıxandan sonra öz kəndlərində mühasib işləmişdi. Əyyub çox əzab-əziyyətli, şərəfli bir ömür sürmüşdü".* Doğru deyirlər ki, yol uzun, ömür qısadır. Uzun yol dedikdə məşəqqətli, məşəqqətsiz, kədərli, kədərsiz əbədi həyatın özü başa düşülür.

Ömürlər isə fərdidir. Fərdi ömürlərin zinəti uzun olan yolda qalan izlərdir. Bu izlərin mahiyyəti isə xeyirxahlıq, doğruluq və düzlükdür.

***08.08.2022***

# IV. "AÇILMAYAN SİRLƏR"İN İSTİNAD YOLU

## 5. Həqiqətə tapınsan, yenilməz olarsan

Əyyub İmanovun həyatını da zinətli edən onun həqiqətə tapınmasıdır. Onu el-oba, camaat arasında yüksək nüfuz səviyyəsinə qaldıran da həqiqətə tapınan cəsarəti olmuşdur. Bəli, əgər hər hansı bir şəxs həqiqətə tapınırsa, yalana tapınanın topunu da üstünə gəlsək, yenə cəsarətli olar. Biz bu fikirlərin təcəssümünü Əyyub İmanovun həyatında da görürük.

Əyyub kişi gözünə güllə sıxılacağı təhlükəsi altında olsa belə, həqiqətindən dönən adam deyildi. Ulduz Qasımın və Ramiz İmanovun yaxşı bildiyi və *"Açılmayan sirlər"* əsərində də yetərincə bəhrələndikləri bir epizodu Ənvər Çingizoğlu da yazısının mərkəzinə gətirir.

Hər hansı bir gücsüzün, köməksizin ləyaqətini Əyyub İmanov qorumağı özünə borc bilirdi. O, ağsaqqallıq elədiyi sözü keçən mühitdə hər kəsin namusunu öz namusu bilirdi. Ənvər Çingizoğlunun təqdim etdiyi mətndə oxuyuruq: *"Araz boyunca sayılıb-seçilən, şəxsiyyətinə böyük hörmət göstərilən bir Azərbaycan, bir türk, bir müsəlman kişisi və ağsaqqalı olmuşdur. Bamazə, söhbətcil, hər sözə bir məsəl çəkən xoşxasiyyət bir insan olmuşdur. Övladlarına qarşı həmişə xoşrəftarlı olmuşdur.-Qardaşların kiçiyi olmasına baxmayaraq, bütün ağsaqqallıq onun üzərinə düşürdü. Bütün qohumlar ona "qağa" deyirdilər. Bir iş olanda hamı deyirdi ki, Əyyub bilər. Bacısı uşaqlarını da lap çox istəyirdi.Uşaqlıqdan bacısıoğlu Əzizi çox istəyirdi. Onun tərbiyəsində, təhsilində, ailə həyatı qurmasında əvvəldən-axıra kimi öz köməyini əsirgəməmişdir"*. Bu mətndəki Əzizin başına gələnləri biz kəndin sıradan olan bir adamının yaşantıları kimi qəbul edirik. Baş verən hadisəni də elə bu yöndən qiymətləndirməyə üstünlük veririk ki, Əyyub kişi cəsarəti, mərdliyi ilə əslində zaman-zaman unudulmayacaq bir yenilməzlik yolu qoyub gedib.

Məlumdur ki, qanunların aliliyinə və kəsərinə baxmayaraq, adamlar arasında özbaşınalıqlar, zorakılıqlar hələ də davam edir. Belə bir zorakılığın şahidləri Əyyub İmanov haqqında az qala əfsanə kimi indi də danışırlar. Doğrudur, nəsillər dəyişib. İndi həmin əhvalatları şahidlərin nəsilləri danışır. Fikrimcə, Ulduz və Ramizin əsərinin bir dəyəri də elə budur ki, elin namusu yolunda mərdlik göstərmək imkanı olan hər şəxsin borcu olmalıdır. Və müəlliflər *"Açılmayan sirlər"* romanının ən dəyərli səhifələrində etnosun təbiətindəki bu üstün cəhətlərin tərənnümünə həsr olunub: *"1960-cı illərdə Əyyubun ikitəkərli motoskileti var idi. Bir gün xəbər gəlir ki, Əziz istədiyi qızı Qazaxlar kəndindən kimsə götürüb qaçıb. Əyyub heç kimə demədən gedib onlarla söz-söhbət eləyir. Gecə ikən isə İfrayanı götürüb evə gətirmiş və toyunu da özü etmişdi. Onun belə hərəkəti üstündə Molla İbrahim neçə ay onunla danışmamışdı ki, niyə tək getmisən o işdən ötrü"*. Bu əhvalatı necə unutmaq olar?! Əslində belə əhvalatların yazılması etnosun mənəvi varisliyinin təminatına xidmət edir. Bu, igidlik geninin idealizəsidir.

Həm əsərdə, həm də Ənvər Çingizoğlunun mətnlərində Əyyub İmanovun özünün canlı xatirələrinə də yer ayrılır. Bu xatirələrin hər bir epizodunda, hər bir hissəsində artıq əbədiyyətdə olan insanların sanki canlı nəbzi döyünür: *"Bir dəfə söhbət eləyirdi ki, müharibədən qayıtdıqdan sonra kənddə bir neçə nəfər mənə sataşmaq istəyirdi və onların layiqli cəzasını verdim. Əyyub həlim olmaqla bərabər zəhmliydi"*. Əyyub İmanovun qonaqpərvərliyi, açıq süfrəli olması, bir sözlə, tərəf müqabilinə səmimiyyəti, doğmalıqla ünsiyyəti onu təkcə öz el-obasında yox, digər bölgələrdə də ad-san sahibi etmişdi. Mətndə onun Azərbaycanın hər yerində dost evinə sahibliyi haqqında məlumatlar da yer alır: *"Heç vaxt haqqı-nahaqqa verməzdi. Bir sözlü kişi idi. Həmının günahını özünə deyərdi. Zarafat da öz yerində. Dostlu-tanışlı adam idi. Hara getsən, orda bir dostu var idi. Şamaxıdan Baləmi əmi, İmişlidən İxtiyar əmi, Beyləqandan Balağa əmi, Bakıdan Rəfi əmi, Kürdəmirdən Məmməd əmi, Qubadlıdan, Zəngilandan və digər bölgələrdən onlarca dostu var idi. Çox səbirli insan idi. Bəlkə həddən artıq səbirliydi. Yəqin ki, bu dözümlük, iradə onun Yaradana sevgisindən irəli gəlirdi. Çünki Allah səbrliləri çox sevir və öz bəndələrini sınağa çəkməklə yoxlayır. Əyyub peyğəmbər "Qurani Kərim"də səbrlik nişanəsidir. Həzrəti Yaqub peyğəmbərin qardaşı oğluydu. Allah-təala onu imtahana çəkdi. Malını, dövlətini, iki övladını əlindən aldı. Xəstələndi, ancaq dili və qəlbi salamat qaldı. Dualarının sayını artırdı, Allahdan rəhm dilədi. Şeytana uymadı, fitnəsinə inanmadı. Ona görə də müqəddəs kitabımızda səbrlilik rəmzi kimi qalmışdır. Əyyub həmişə hər bir hadisəni diqqətlə dinlər, sonra ona yol-yöndəm göstərər və kömək edərdi. O qan yatırardı"*. Əslində eldə-obada Əyyub kimi insanların varlığı insanlar arasında mənəvi nizamın qorunmağına xidmət edirdi.

Əyyub kişi həyatında rastlaşdığı hər bir məhrumiyyətdən uğurla baş çıxarıb. Halallığı ömrünün axırancan qoruyub saxlayıb. Yenə onun maraqlı söhbətlərindən bir parçanı dinləyək: *"Əyyub bir dəfə söhbət edirdi ki, uşaq vaxtlarında qonşu toyuğunun yumurtasını gətirir evə, babam da qənd çəkici ilə qənd doğrayırmış. Qayıdır ki, gətir qoy yanıma, sonra da get toyuğu tutub gətirərsən, o da ürəklənib Hacının yanına gələndə əlindəki qənd çəkici ilə onu vurur, bu gün ölmüsən, o gün ölmüsən, uşaq qalır yerdə. Məşədi Qasım o vaxt İrana gedibmiş işi olduğu üçün. Xəbər gedib ki, bəs Əyyub ölüb. Təcili qayıdıb obaya. Hacı çox pis vəziyyətdə qalmışdı. Məşədi əyilib qardaşın öpmək istəyəndə görür ki, burnundan hava gəlir. Nə isə, bir gündən sonra özünə gələn atam söhbət edirdi ki, 40 il ondan sonra Sarıbulaqdan Böyük Turşsuya enirdim, gördüm ki, sürüdən bir erkək azıb qalıb baldırqanlıqda. Ayaqlarını bağlayıb qoydum ora ki, gecə gəlib apararam. Yuxu məni aparır, bir də yuxuda gördüm ki, atam mənə deyir ki, erkəyi ver Qarahəsən kişiyə. Tez yuxudan ayılıb İbrahim qağamı durğuzub gedib erkəyi gətirdik və ondan sonra qoymazdı ki, evə haram mal gəlsin"*. Maraqlı əhvalatdır. İbrətlidir. Xüsusilə gənc nəsil üçün çox dəyərlidir.

Erməni vandallarının torpaqlarımızı işğalı ilə o da barışmırdı. Onun ən böyük arzusu işğaldan azad olunmuş Mehdiliyə qayıtmaq idi. Çox təəssüf ki, Əyyub İmanov 1995-ci ildə vəfat etdi. Onun ailəsi də nəsildən gələn halallıq qaydalarını qoruyub saxlayıb. O böyük ailə sahibi idi. Və bu böyük ailəni özünəməxsus ağsaqqallıqla idarə edirdi. Mətndə onun övladları haqqında da kifayət qədər dolğun məlumatlar var.

Müdrik adamlar deyirlər ki, insanlara xeyirxahlıq yolu göstərən hər bir kitab müqəddəsdir. Yeri gəlmişkən, bunu da deyək ki, Ulduz Qasımın və Ramiz İmanovun *"Açılmayan sirlər"* kitabı elə həm də xeyirxahlıq dərsliyi kimi diqqəti cəlb edir. Bu baxımdan Əyyub İmanovun övladları haqqında məlumat da bizdə belə bir təsəvvür yaradır ki, onun işıqlı yolunu davam etdirə bilən nəsli yaşayır: *"Əyyub İmanov Simuzər Məmmədalı qızı İbrahimova ilə yaşam qurmuşdu. Ramiz, Qeys, İltimas, Alay, Məhəmməd adlı oğulları, Şölə, Təranə, Səadət və Səidə adlı qızları vardı. Ramiz Əyyub oğlu İmanlı 16 iyun 1951-ci ildə Cəbrayıl rayonunun Mehdili kəndində dünyaya gəlib. Orta məktəbi bitirəndən sonra APİ-nin (APU-nun) coğrafiya fakültəsinə daxil olub. 1977-ci ildə institutu tamamlayıb. Ramiz İmanlı cavan yaşlarında idmanla məşğul olubmuş, idman ustasıdır. Güləş üzrə Azərbaycan çempionu olmuş, SSRİ birinciliyində - Leninqradda (Sankt-Peterburqda), Minskdə, Kiyevdə, Rostov-Donda və Daşkənddə idman yarışlarında iştirak edib.Cəbrayıl OADKYC-nin rayon komitəsinin (1980-1987-ci illər) sədri vəzifəsində işləyib. Həmin dövrdə rayonda ilk dəfə olaraq Texniki İdman klubunun açılmasını təşkil edib. (1987-ci illər) "Məhsul" KKİC-nin rayon şurasının sədri işləyib. Həmin illər ərzində rayonda idmanın inkişafına, o cümlədən, futbolun inkişafına çox kömək etmiş, əlaqədar təşkilatlara rayonda 5 min yerlik stadionun tikintisində fəal iştirak edənlərdən biri olmuşdur. Rayonun "Xudafərin" futbol komandasının yaradılmasında və respublikada liqasında iştirakında əsas təşkilatçılarından biri olub. Əsas təltifləri SSRİ OADKYC-nin döş nişanı, "Məhsul" KKİC və Azərbaycan Hİ-nin fəxri fərmanları. Hacı Ramiz 1974-cü ildə Validə Allahverdi qızı Həsənova ilə ailə həyatı qurub. Nicat, Rəşad adlı oğulları, Ruhiyyə adlı qızı var. Nicat Hacı Ramiz oğlu İmanzadə 8 noyabr 1975-ci ildə anadan olub. Ali təhsilli hüquqşünasdır. Hazırda neft şirkətində çalışır. Nicat İmanzadə 1999-cu ildə Quluyeva Raifə Əyyub qızı ilə ailə həyatı qurmuşdur. İki övladı var: Fateh, Ruhiyyə. Qızı Ruhiyyə 2000-ci ildə doğulub. Oğlu Fateh 2002-ci ildə anadan olub. Hacı Ramizin ikinci oğlu Rəşad 10 sentyabr 1979-cu ildə dünyaya gəlib. Orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olub. Akademiyanı tamamlayandan sonra hüquq mühafizə orqanlarında işləyib.Rəşad Nuranə Qeys qızı ilə ailə qurub. Hacı Ramizin qızı Ruhiyyə 15 oktyabr 1978-ci ildə dünyaya təşrif gətirmişdi. Ruhiyyə İmanzadə 19 aprel 1995-ci ildə faciəli şəkildə həlak olmuşdur. Əyyubun ikinci oğlu Qeys 1956-cı ildə anadan olub. Orta məktəbi bitirib"*. Onu da deyim ki, şəcərənin Əyyub kişinin oğlu Ramizlə davam edən simaları ilə mən də tanışam. Ramizlə, onun həyat yoldaşı Validə xanımla tələbə yoldaşı olmuşuq, eyni dövrdə oxumuşuq. Hələ gənclik zamanından tanıdığım bu şəxslərin uğurlu həyat yolu məni bir daha inandırır ki, ləyaqətlə yaşanan ömürlər cəmiyyətdən həmişə hörmət payı alır. Cəmiyyət belə insanların mühitini yüksək qiymətləndirir, onlara dəyər verir.

Ənvər Çingizoğlu təqdim etdiyi şəcərə ilə bağlı mənəvi məsuliyyətini axıracan qoruyub saxlayır. O Hacı Məmmədqulunun nəsil davamı ilə də bağlı ətraflı və əhatəli məlumat verir: *"Hacı Molla Məmmədqulunun böyük qızı Zeynəb Mehdili obasında dünyaya zinyət vermişdi. Zeynəb Maralyan kəndindən olan Vəli Sadıqovla ailə qurmuşdu. Baloğlan adlı oğlu, Məryəm və Pəri adlı qızları vardı. Hacı Molla Məmmədqulunun ikinci qızı Ballı Mehdili obasında dünyaya təşrif gətirmişdi. Ballı Məmməd Mehrəliyevlə həyat qurmuşdu. Əli, Vəli, Mədət, Mehrəli adlı oğulları, Anaxanım və Bibixanım adlı qızları var. Hacı Molla Məmmədqulunun üçüncü qızı Güllü Mehdili obasında dünyanı tanımışdı.Güllü Allahverdi Şıxıyevlə yaşam qurmuşdu. Çayoğlan, Əziz, Yaqub adlı oğulları var. Hacı Molla Məmmədqulunun dördüncü qızı Dürrə Mehdili obasında dünyaya pənah gətirmişdi. Dürrə uşaqkən tələf olmuşdu. Hacı Molla Məmmədqulunun beşinci qızı Rəhil 1922-ci ildə Mehdili obasında dünyaya gəlib"*. Göründüyü kimi, son yüz ilin hadisələri bu və ya digər dərəcədə Ulduz Qasımın təbirincə desək, Hacı Quluların taleyində dərin izlər buraxıb. Bu yolda faciəli talelər qəlbimizi göynədir. Onların əqidə və inam yolunda hər cür əzablara dözümlərinə bir çox hallarda heyrət edirik, amma əlbəttə, bu dözümü bu qüdrəti həm də təqdir edirik.

Ulduz Qasımın və Ramiz İmanovun *"Açılmayan sirlər"* kitabını zinətləndirən adlar sırasında Hacı Quluların digər övladı Molla İmamverdinin də şəcərəsi qədərincə xatırlanır: *"Molla İmamverdinin üçüncü oğlu Həşim 1866-cı ildə Mehdili obasında anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi. Həşimin Barat adlı oğlu, Bəyi və Məryəm adlı qızları vardı. Barat Həşim oğlu Mehdili obasında doğulmuşdu. Səkkizillik məktəbi bitirəndən sonra tibb texnikumuna daxil olmuşdu. Texnikumu tamamlayandan sonra İsmayıllı bölgəsinin Basqal kəndində feldşer işləmişdi. Həşimin böyük qızı Bəyi Mehdili obasında dünyaya ziynət vermişdi. Bəyinin Xalqıverdi adlı oğlu, Mərziyyə adlı qızı var. Molla İmamverdinin dördüncü oğlu Hüseynqulu 1875-ci ildə Mehdili obasında anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Hüseynqulu 1905-ci ildə erməni quldurları tərəfindən öldürülüb. Molla İmamverdinin beşinci oğlu Mahmud 1878-ci ildə Mehdili obasında dünyaya gəlmişdi. İbtidai təhsilini atasından almışdı. Mahmud İmmi Molla İsmayıl qızı ilə ailə qurmuşdu. Oruc, Qurban adlı oğulları, Diləfruz adlı qızı vardı. Oruc Mahmud oğlu Mehdili obasında dünyaya göz açmışdı. Kolxozda çoban işləmişdi. Oruc Növrəstə ilə ailə həyatı qurmuşdu. İsa, Fərrux, İsmayıl, İsrafil, Mahmud adlı oğulları, Zeynəb, İmmi, Diləfruz və Səriyyə adlı qızları var"*. Şəcərəni təşkil edən, yaradan nəsillərin davamıdır. Şəcərədə adlar sistemi qızıl zəncir yaradır. Hər bir ad isə bu zəncirin ayrı-ayrı halqalarıdır.

**(Davamı 6-cı səhifədə)**

# IV. "AÇILMAYAN SİRLƏR"İN İSTİNAD YOLU

*(Əvvəli 5-ci səhifədə)*

Düşünürəm ki, kaş tədqiqatçılarımız Ənvər Çingizoğlunun tədqiqatlarını yaxşı öyrənəydi və bu şərəfli yolu davam etdirəydi. İndi düşüncələrimin arasında şeyx Xudaverdinin nəsil şəcərəsi sıralanır. Nə bilmək olar, bəlkə bu şəcərədən gələcəkdə həyat yolu tutmuş bir gənc elə bu adlar əsasında tariximizin digər qaranlıq səhifələrinə də işıq salacaq. Xronikanın sonuna yaxın oxuyuruq: *"Şeyx Molla Xudaverdinin üçüncü oğlu Tanrıverdi 1819-cu ildə Namazalısərkar obasında anadan olmuşdu. Ailədə babasının şərəfinə bəzən onu Pirverdi adı ilə də çağırırdılar. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul olmuşdu. Tanrıverdinin Gülməmməd, Xanəhməd, Piri, Babaş adlı oğulları vardı. Gülməmməd Tanrıverdi oğlu 1839-cu ildə Xırdapara-Dizaq mahalının Namazalısərkar obasında doğulmuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi. Tanrıverdinin ikinci oğlu Xanəhməd 1844-cü ildə Namazalısərkar obasında dünyaya gəlmişdi. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi. Xanəhmədin ikinci oğlu Teymur 1881-ci ildə Namazalısərkar obasında dünyanı tanımışdı. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi.Tanrıverdinin üçüncü oğlu Piri 1857-ci ildə Namazalısərkar obasında dünyaya pənah gətirmişdi. Heyvandarlıqla, qismən də, əkinçiliklə məşğul idi. Tanrıverdinin dördüncü oğlu Babaş 1861-ci ildə Namazalısərkar obasında anadan olmuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi. Babaşın Allahverdi adlı oğlu vardı. Allahverdi Babaş oğlu 1885-ci ildə Namazalısərkar obasında doğulmuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi".* Kimlərəsə sadə, asan gələ bilər. Kimlər üçünsə lap maraqsız da ola bilər, amma biz bu mətnlərdən xalqımız üçün dəyərli informasiya alırıq. İnsanların həyat tərzi, məişəti, məşğuliyyəti xronikanın içərisində gizlənmiş ayrı-ayrı ifadələrlə diqqətimizə çatır.

Ermənilər bizə vəhşi köçərilər deyə hücuma başladılar. Amma bu mətnlər göstərir ki, türk etnosu tarixin qədim zamanlarından üzü bəri Arazboyunda məskunlaşıb, öz zəhmətləri ilə həyatlarını zinətləndiriblər. Elə məlumatın özündə göstərildiyi kimi: *"Şeyx Molla Xudaverdinin dördüncü oğlu Allahverdi 1820-ci ildə Namazlısərkar obasında anadan olmuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi. Allahverdinin Şirin, Əli, Vəli adlı oğulları vardı. Şirin Allahverdi oğlu 1848-ci ildə Namazalısərkar obasında doğulmuşdu. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi. Şirinin Talıb adlı oğlu vardı. Talıb Şirin oğlu 1883-cü ildə Namazalısərkar obasında dünyaya gəlmişdi. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi.Allahverdinin ikinci oğlu Əli 1860-cı ildə Namazalısərkar obasında dünyaya göz açmışdı. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi. 1873-cü ildən sonra Şuşa qəzasının Kəbirli kəndinə köçdü. Allahverdinin üçüncü oğlu Vəli 1868-ci ildə Namazalısərkar obasında dünyaya pənah gətirmişdi. Heyvandarlıqla, qismən də əkinçiliklə məşğul idi".* İndi bu adları daşıyanların hər biri əbədiyyətdədir. Onların nəsillərindən yaşayanlar var. Cəfakeş tədqiqatçının araşdırmaları sayəsində bu adlar yazıya gətirilib. Yazı isə bəşəriyyətin ən böyük icadıdır.

Hər bir insanın özündən əvvəlki nəsli haqqında məlumat almaq istəyi var. Bəzən bu istəklərlə insan özündən əvvəlki tarixin səyahətinə çıxır. Yaşayan adlarla onlardan qalan məlumatlarla, bir çox hallarda isə insanlığa zinət gətirən xatirələrlə özlərini dərk edirlər. Ulduz Qasımın və Ramiz İmanovun *"Açılmayan sirlər"* kitabına zinət verən adlarla bağlı Ənvər Çingizoğlunun qeydləri xronika hissəsini burada bitirir.

Düşünürəm ki, adların sıralanması bəzi oxucular üçün darıxdırıcı bir ovqat yaratsa da, əksəriyyət üçün böyük maraq kəsb edəcək. Necə ki, biz bu gün Ənvər Çingizoğlunun qeydlərini istinad alan *"Açılmayan sirlər"* əsərinin tarixi dəyərini qiymətləndiririk, eləcə də gələcək nəsillər bizim qeydlərimizdə təkrarlanan adlarla mənəvi mühitlərini bir daha zənginləşdirəcəklər.

Həyat təzadlı rənglərlə doludur, amma insanlar onların ömür yoluna işıq salan rəngləri daha çox axtarırlar. Həmin rənglər isə insan talelərində əks olunur.

08.08.2022

## 6. "Açılmayan sirlər"ə tədqiqatçı nəzəri

*"Açılmayan sirlər"* kitabının əhatə etdiyi tarix əsasən son yüz illiyi əks etdirsə də, əslində bu tarix daha qədim dövrlərdən başlayaraq gələn bir nəslin yaşam yoluna işıq tutur. Əlbəttə, söhbət ondan getmir ki, bu əsər tarixdir, məqsəd də tarixi yazmaqdır. Xeyir, əslində əsas müəlliflərin əsas məqsədi tədqiqatçının təqdim etdiyi arxiv materialları əsasında nəslin düşüncə yolunu, onların əqidə və məramlarını göstərmək olub.

Məlumdur ki, XIX əsrin birinci qərinəsində baş verən hadisələr Azərbaycan tarixində çox böyük dəyişikliklərə səbəb oldu. İki qəsbkar dövlət Azərbaycanı öz aralarında parçaladılar. Bir tərəf qatı dini işğal siyasəti ilə insanların düşüncələrini zəbt etdi. Hətta sağlam İslamın özünə də bu münasibət ciddi zərbələr vurdu. İkinci tərəf isə işğal etdiyi ərazidə İslam dininə ögey münasibət bəsləməklə insanların əqidə və inamlarını hər vəchlə aşağılamağa cəhd göstərdilər. Bunun nəticəsində xalqın mənəvi mühitinə xeyli zərbə vuruldu. Azərbaycanın şimal hissəsində də insanlar min illik əqidə və inamlarından ən müxtəlif şəkillərdə təcrid olunmasına cəhdlər göstərilirdi.

Ulduz Qasımın və Ramiz İmanovun "Açılmayan sirlər" əsərinin qəhrəmanları əqidə və inam uğrunda mübarizlər kimi görünür. Onların timsalında insanın əzablara, hər cür siyasi ittihamlara, qorxulara dözümü, iradəsi idealizə olunur. Həm o tayda, həm də bu tayda nəslin tanınan simaları hər cür siyasi və mənəvi basqılara tab gətirərək şəxsiyyət bütövlüyünü qoruyub saxladılar. Təsadüfi deyil ki, *"Açılmayan sirlər"* romanının lap başlanğıcında Şeyx Qasımın yuxusu verilir. Məlumdur ki, hər bir yuxu insanın real həyatla bağlı düşüncələrinin müəyyən mənada əks-sədasıdır. Şeyx Qasımın yuxusunda da əsas obrazlar Azərbaycanın şimalında qalmış doğmalarıdır: *"Göydəki ulduzlara baxanda o qədər şey gəlir ki, ağlına. Orda nə var, kim var? Niyə bu qədər işıqlıdır ulduzlar? Uşaqlıqda düşünürsən yəqin göy üzü yerin tavanıdı, bütün yer üzü isə insanların yaşadığı evdir. Bütün canlıların evi. Rəssam fırçasıyla çizilə bilməyəcək bu gözəlliklərin sahibini düşünürsən. Və ağlına gələn ilk bu olur ki, baxıb feyz aldığın bu sirləri sən heç vaxt çözə bilməyəcəksən. Çünki bu cizgi elə bir qüvvəyə aiddir yer üzü, göy üzü yığışsa onun sirrini aşikar edə bilməz. O özü açmasa, əyan etməsə. Elə bu yazıda da baş verən sirlərin sahibi odur. İnsan ağlıyla ölçülə bilinməyəcəklərin sahibi... Qasım diksinib yuxudan qalxdı".* Zənnimcə, bu təsadüfi deyil. Müəlliflər bu yuxu əhvalatından bir rəmzi motiv kimi istifadə etmək istəyiblər. Görünür, aradan yüz illik bir məsafə keçsə də, siyasi ayrılıqların yaratdığı həsrət, hicran doğmaların yaddaşında əsil həqiqətlərin üstünü örtə bilməyib. Görünür, elə müəlliflər də bu yuxu əhvalatı ilə demək istəyirlər ki, siyasi ayrılıqlar insanları bir-birindən təcrid etsə də, doğmalar heç vaxt unudulmur. Əgər yaddaş yaşayırsa, onda həqiqətlər də yaşayır.

Ənvər Çingizoğlu artıq dəfələrlə qeyd etdiyimiz kimi çox zəhmətkeş, fəhmli və bilikli şəcərəşünas idi. O, *"Açılmayan sirlər"* əsərinin müəllifləri Ulduz Qasımın və Ramiz İmanovun mənsub olduğu nəslin ulu kökdən gələn və şaxələnən bütün sxemini öyrənmiş, bir-birini on illər boyu dəyişən insanların adlarını sənədlər əsasında mənimsəyə bilmişdir. O, haqqında kitab gedən kitabın əsas məziyyətini elə qeydlərinin birbaşa məntiqi ilə diqqətə çatdırır: *"Biz Hacı Ramiz İmanovun və Ulduz Qasımının "Açılmayan sirlər..." kitabını oxuduq. Qənaətimiz bu oldu ki, hazırkı bilik səviyyəmizlə həmin sirlərə çatmamız mümkün deyil. Bunun üçün həm də nəfsimizin təmizliyi vacibdir. Biz arındıqca uca Allahın sirlərini öyrənmiş olacağıq. Bir insan nə qədər elm və ürfandakı incəlikləri çox öyrənib bilirsə, sirrin dəyərini də o qədər dərk edir. Uca Allahın da işlərindəki bu incəlikləri, ağıla gəlməz hikmətləri araşdırdıqca, onun böyüklüyünün və elminin sonsuz olduğunun şahidi olacaq".* Göründüyü kimi, o, kitabın məntiqi mahiyyətini düzgün təyin edir. Axı əsərin qəhrəmanları həqiqətlərə çatmağın ən üstün yolunu insanın öz nəfsinə qarşı vuruşa-vuruşa apardığı mübarizələrlə mümkündür. Və elə özü də bu qənaətə gəlir.

Bəlkə də ilk baxışdan *"Açılmayan sirlər"* kitabını vərəqləyənlər bu əsəri dini təbliğat nümunəsi kimi də görə bilər. Amma əslində belə deyil. Bu əsər insanların mənəvi təmizlik yolunda Allahı yaradıcı varlıq olaraq qəbul edənlərin əməlinə işıq tutur.

Klassik şərq fəlsəfəsində, sufizmdə, hürufizmdə və digər mütərəqqi təsəvvüf ədəbiyyatında düşüncə adamları Allahı küll kimi qəbul edir. İnsanların ömrü boyu mənəvi saflıq uğrunda mübarizələri ilə Allaha qovuşmaq istəklərini tərənnüm edirdilər. Bu əsərin qəhrəmanları da həyatlarını sağlam mənəvi güclə yaşamaq istəyi üzərində qurur. Və bu yolla özlərinin inam istinadlarına yetmək arzusu ilə mücadilə edirlər. Ənvər Çingizoğlu kitabın bu motivlərinə işıq salan məqamlarda da müəlliflərin yolunu təqdir edir: *"Bu elm də (Allahın sirlərini öyrənmək elmi) ancaq uca Allaha təqva, yaradılmışlara qarşı təvazökarlıq, dünyaya münasibətdə zöhd və nəfsə münasibətdə amansız bir mücadilə ilə əldə edilə bilər. Kitabda göstərilir ki, elm əsasdır, ancaq bu əsasın qayəsi də gözəl əməldir. Bu da qısa olaraq desək, Allahın buyruqlarını böyük bir itaət duyğusu ilə yerinə yetirmək və bütün yaradılmışlara mərhəmət etmək sirrində gizlidir. Əks halda, elm faydasız bir yükdür".* Kitabın müəllifləri nicat yolunu, insanların ucalığa qovuşmaq niyyətinin reallaşmasını Allaha buyurduqlarına əməl etməkdə görürlər. Zənnimcə, insanların öz nəfslərinə qarşı mübarizələri elə Allahın buyurduğuna əməl etməkdir.

İnsanın əqidəli olması, vətənini sevməsi, torpağına sədaqəti, ümumiyyətlə, insana, insanlığa sevgisi aqillər tərəfindən imanlılıq kimi qiymətləndirilib. Yüksək iman sahibi olmaq üçün gərək həyatını mənəvi saflıq qanunları əsasında idarə edəsən.

Məlumdur ki, sağlam əqidə, insanlığa inam elə imandan qaynaqlanır. Müəlliflərin imanı, düşüncə qaynağı kimi təqdim etmələri əkinçinin saf toxum əkməsinə bənzəyir. Saf toxum torpaqda necə kök atırsa, mənəvi saflıq düşüncəsi də, iman da beləcə insanların varlığında özünə yer tapır. İnsanın təbiətinə hopur. Və nəhayət, insanın zahiri görünüşündən fərqli olaraq daxili aləminin məzmununa çevrilir. Ənvər Çingizoğlu yazır: *"Kitabın müəllifləri bizə aşılayırlar ki, iman, münbit torpağa düşən kök atmış məhsuldar bir ağac kimidir. Bu ağac göylərə yüksəlmiş, çiçək açmış və meyvəlidir. O öz meyvələrini Rəbbinin izni ilə insanlara bəxş edir. İman həm də bu ağac kimi sahibinin qəlbinin dərinliklərinə kök atmış etiqaddır; onun gövdəsi, budaqları və meyvələri isə əməldir. Heç bir şübhə yoxdur ki, köklər kəsilərsə və ya yerdən çıxarılarsa, ağac quruyar və məhv olar. Əgər etiqad itirələrsə, iman da məhv olar, mövcud olmaz".* Yaxşı müqayisədir. Sanki müəlliflərin fəsil-fəsil yazılarla oxuculara çatdırmaq istədiklərinin tezis şəklində ifadəsidir. Eyni zamanda yaddaşda asan qalmaq üçün tədqiqatçı öz fikrini obrazlı ifadə edir.

Allahın mahiyyətinə varmaq istəyi insan nəsilləri boyunca həmişə davamlı olub. *"Açılmayan sirlər"* əsərinin də müəllifləri ədəbi qəhrəmanlarının düşüncələri ilə məhz Allahın sifətlərini göstərməyə çalışıblar. Hətta bunun üçün yeri gəldikcə dini mənbələrə də istinad edirlər. Ənvər Çingizoğlu da ilahiyyat haqqında kifayət qədər bilgili olduğundan müəlliflərin düşüncələrini yetərincə ümumiləşdirə bilir: *"Biz bu kitabdan Allahın sifətlərini öyrənirik. Müəlliflərin göstərdiyi yollarla. Qurani Kərimin 119 ayəsində Allahın sifətləri haqqında qeyd edilmişdir. Öz qüdrət və əzəmətini bizlərə tanıtmaq istəmişdir. Öz qüdrət və əzəmətini bizlərə tanıtmaq istəmişdir. Əgər Allahın sifətlərinin keyfiyyətlərini tam öyrənib, onların xüsusiyyətlərini görüb, tanıya bilsək, onda qüdrət sahibi olan Allahı da tanıya bilərik. Allahın "Sifəti-sübutiyyə" (sifəti-kamaliyyə) sifətləri səkkiz keyfiyyətdən ibarətdir və bunlardan üçü: Qadir, Alim, Mürid sifətlərinin əlamətləri biz insanlarda vardır. Qalan beşində isə bizə çox şeyləri anladan hikmət və işarələr vardır: Həyy, Müdrik, Qədim, Mütəkəllim, Sadiq".* Müəlliflərin mövqelərinə və tədqiqatçının da razılaşdığı qənaətlərə əsasən əsərdə idealizə olunan əsas cəhətlərdən biri də Allahı tanımaqdır.

**(Davamı 7-ci səhifədə)**

# IV. "AÇILMAYAN SİRLƏR"İN İSTİNAD YOLU

*(Əvvəli 6-cı səhifədə)*

Şübhəsiz, biz də gözümüzü açandan böyüklərimizdən öyrənmişik ki, Allahını tanımayan insanın vicdanı ləkəli olar. Əslində, Allah haqqında düşüncələr elə vicdani düşüncələrdir. Doğrudur, islami dəyərlərdə çox vaxt Allah xofu, Allah qorxusu daha üstün tutulur. Amma Allaha qəlbən bağlananlar üçün, Allahı həqiqət kimi qəbul edib həqiqəti sevənlər üçün Allah qorxusu o qədər özünü doğrultmur.

Hər halda Ənvər Çingizoğlu qənaəti də *"Açılmayan sirlər"*ə istinad edərək müəlliflərin İslami düşüncələrinin İslam elmi ilə uyğun gəldiyini, İslam elminin əsasında bu düşüncələrin insan həyatının normasına çevrildiyinin təqdiridir: *"Biz öyrəndik ki, digər İslam elmlərindən fərqli olaraq kəşf, kəramət və təsərrüf kimi qeyb aləminə aid sirlərdən bəhs edən, kəlam və fəlsəfə elmində olduğu kimi ağıl ilə gerçəkləşdirilən nəzər və istidlal metodunun əvəzinə qəlb ilə əlaqəli kəşf və ilham metodunu mənimsəyən bir elmdir".* Hər halda insanın mənəvi ucalığına xidmət edən bütün kitablar insanın ulu yaradanı və həyatı dərkinə xidmət edir. Zənnimcə, elə Ənvər Çingizoğlu da bunu demək istəyir.

Həm tədqiqatçının, həm də müəlliflərin qənaətləri belədir ki, insan ulu yaradanına sevgi bəsləməsə, həyatın nizamını təmin edən gücün ulu yaradana sonsuz sevgidən güc aldığını qəbul etməsə, heç özünü də dərk edə bilməz, onda insanın mahiyyəti də durğun olaraq qalardı. İnsan daxili yüksəlişə nail ola bilməzdi.

*"Açılmayan sirlər"* əsəri oxucuya təlqin edir ki, həyatını ulu yaradana sevgi əsasında qursun. Onda onun mənəvi mühitinin sərhədləri də genişlənər, insan daxilən böyümüş olar: *"Dərkimiz: İnsan, həyatın axışı içində yaşama sevinci və ölümdən qorxmaq kimi iki əsas zidliyin içində çalxalanır. Daima bir axış halında olan həyat və ölümün həqiqi mənaları idrak edilmədən, yaradılışın sirri və hikməti ilə insanın həqiqi mahiyyəti də başa düşülməz".* Tutarlı qənaətlərdir, insanı ucalığa səsləyən qənaətlərdir. Ümumiyyətlə, Ənvər Çingizoğlu əsərdə istifadə olunan faktları yaxşı bilməyindən başqa əsərin özünü də yaxşı öyrənib. O, müəlliflərin də mövqeyini bütün aydınlığı ilə dərk edib, sanki onların düşüncələrini saf-çürük edib yaxşı olanın hamısını ucalandırmağa çalışıb.

Əsərdə bir-birini əvəz edən nəsillərin müdrik nümayəndələri şeyxlərin həyata, insana, ulu yaradana münasibəti təkcə onların düşüncələrini şərh etmir, həm də onların gözlə görünməyən aləmlər haqqındakı qənaətlərinə də işıq tutur.

Ümumiyyətlə, hər bir tələbə öz ustadından dərs almaqla, yaxud özünə qədər yaranmış olan mənəviyyat xəzinəsini mənimsəməklə qəlbini nurlandıra bilər. Əsərdəki şeyxlərin zəngin bilikləri qəlbləri nurlandıran mənbə kimi göstərilir: *"Kitabdakı şeyxlərin öyrəndiyi elm gözlə gördüyümüz bu dünya aləmindən başqa, zaman-zaman qeyb aləmindən də bəhs edir. Bu elmdə qeyb aləminə aid məlumatlar mürşiddən öyrənilən, zövq, hal, qəlbi kəşf və ruhi təcrübələrlə əldə edilir".* Ə.Çingizoğlunun bu qeydlərindəki təsəvvüf terminləri öz mənasına, mahiyyətinə uyğun təqdim edilir.

Əsərin mənəvi fikir qaynağı, başqa sözlə, əsas obrazı digər obrazların istinad mənbəyi Şeyx Qasım Qafqazidir. Onun hər tərəfli zəka sahibi olması, gələcək haqqında qənaətləri, insanlara münasibəti göstərir ki, o, mənəviyyat elmlərinə vaqif olub. Dünyasının dəyərini yaxşı bilib. Əlbəttə, söhbət maddi dünyadan getmir. Ə.Çingizoğlu da Şeyx Qasım Qafqazinin əsərdə təqdir olunan yoluna öz düşüncələrində işıq salır: *"Hacı Şeyx Qasım Qafqazi insandakı dünya sevdasını ataraq ibadət və qulluq şüurunun canlı tutulmasını söyləyən həzrəti peyğəmbərin göstərişlərinə əməl edib müəlliflərin təbirincə "vəzifə" ardınca gedir".* Nədənsə mənə elə gəlir ki, Şeyx Qasım Qafqazinin mənəviyyat aləminə səyahəti haradasa, Yunis Əmrəni, onun mürşidi Tapdıq Əmrəni yada salır. Adları çəkilənlərin hər birində mənəviyyat aləmi dünya səyahətini idealizə edir, əlbəttə, söhbət insan dünyasından gedir.



*Şeyx Hacı Məmmədqulu (1862-1933)*



*Hacı Şeyx Qasım (1893-1975)*

Ənvər Çingizoğlu öz qeydlərində *"Açılmayan sirlər"* əsərini təmizlənmiş qəlb haqqında traktat kimi şərh edir. Həqiqətən bu əsər nə qədər həyatidirsə, bir o qədər də, qeyri-həyatidir. Yəni insanın Allah dərgahına saf bir qəlb ilə getmək yolundan bəhs edən bir əsərdir. Ə.Çingizoğlu elə beləcə də yazır: *"Kitabda heç bir şey məqsədsiz və təsadüfi deyil. Bu kitab bizi öyrədir ki, mənəvi tərbiyə və təmizlənmə ilə qəlb aləmində inkişaf əldə edilməsə, Quran, kainat və insanın sirlərini bilmək mümkün deyil. Quran sonsuz sirlər xəzinəsidir. Bu sirr və hikməti dərk etmək üçün də qəlbin mənəvi olaraq təmizlənməsi və formalaşması lazımdır. Quranın hikmət və sirlərini ancaq təmizlənmiş bir qəlb ilə bilmək mümkündür".* Buradan anlaşılır ki, hər kəs bu əsərin təlqin etdiyi ideyaların məğzinə axıracan yetə bilməz. Amma o şəxslər yetə bilər ki, onların varlıqları maddi nəfs istəklərinə qalib gəlsin. Hətta tədqiqatçı da razılaşır ki, insanlara bu həqiqətləri dərk etməsi üçün əsas yardımçı ilahi kitab ola bilər.

Ə.Çingizoğlu *"Açılmayan sirlər"*in bəzi məqamlarına terminlərin şərhi ilə aydınlıq gətirməyə çalışır. Çünki kütləvi oxucu üçün bir çox hallarda dini-mistik terminlər anlaşılmaz görünür. Amma Ə.Çingizoğlu sadə məntiqlə kitabda rast gəldiyi bu terminlərə də aydınlıq gətirir: *"Kitabda öyrəndiyimiz bir məqam da var: İxlas. Bu termin təmiz və qarışıqsız etmək, seçmək, səmimiyyət, könüldən bağlılıq deməkdir. İbadət və davranışları yalnız Allaha məxsus edib başqa düşüncələrdən təmizləməkdir. İxlas tövhid inancının bünövrəsi olduğundan, Allahın birliyini ən gözəl və tam bir şəkildə ifadə edən surəyə "ixlas" adı verilmişdir".* Həqiqətən, insan mənəvi saflıq yoluna düşmək istəyirsə, o gərək təbiətini qeyri istəklərdən xilas etsin. Mübarizələrini həqiqət yolunda sərf etməyə yönəltsin. Başqa sözlə, ruhunu və varlığını axıracan təmizləsin.

Ənvər Çingizoğlu Şeyx Qasım Qafqazinin mənəviyyat mühiti haqqında düşünür, onun ideya qaynaqlarını axtarır. Və belə qaynaqlardan birini şərq dini fəlsəfəsində tapır: "Hacı Şeyx Qasım Qafqazinin şeyxlik silsiləsində dayanan Cüneyd Bağdadi deyir ki: *"İxlas, qul ilə Allah arasında bir sirrdir. Mələk onu bilməz ki, savab yazsın. Şeytan ona yaxın dura bilməz ki, fəsad etsin. Həva və həvəs onun fərqinə varmaz ki, ona meyil etdirsin".* Ənvər Çingizoğlunun düşüncələrində mələk və şeytan qarşılaşdırılır. İstək və həvəs mahiyyətinə diqqət çəkilir. Əslində, bunlar insanın kamilləşmə yolunda qarşılaşdığı təzadlara işarələrdir.

*"Açılmayan sirlər"* əsəri insanları təmizliyə çağırır. Saflığa yönəldir. Məhz bu düşüncəni Ə.Çingizoğlu qeydinin sonunda belə ifadə edir: *"Bu kitabın hədəfi isə kamal sifətlərə sahib olan, nöqsan sifətlərdən uzaq, uca Allahı qəlbən də tanıya bilməkdir".* Tədqiqatçının düşüncələri ilə müəlliflərin qənaətləri bir-birini tamamlayır. Əslində, tədqiqatçı kitabda ali insan idealının tərənnümünü təqdir edir.

Bundan sonra hər kəs könül evinin açılan qapılarına doğru yolu özü görməlidir. Müəlliflərin məqsədi həm də insanların gözlərinə nur bəxş etməkdir.

**09.08.2022**